**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNUN DAVAMLI İNKİŞAF POTENSİALI

İxtisas: 5902.17 – "Davamlı inkişafın idarə edilməsi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Simnar Tanırverdi oğlu Mamedov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

**Rəsmi opponentlər:** siyasi elmlər doktoru, professor
**Nuriyeva İradə Tofiq qızı**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Ülfət Rüfət oğlu Mehdiyev**

siyasi elmləri üzrə fəlsəfə doktoru
**Rəşad Rəhim oğlu Məhərrəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komiyyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BFD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Akademik
**Urxan Kazım öğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: Siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: Siyasi elmlər doktoru, professor
**Ziyafət Ziya qızı Həbibova**

# DİSSERTASİYANIN ÜMUMİ SECİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan iqtisadiyyatının strukturunda təbii ehtiyatların hasilatı və kənd təsərrüfatı əhəmiyyətli paya malikdir. Belə hal həm ətraf mühitin qorunması, həm də mövcud təbii ehtiyatların gələcək nəsillərin maraqlarının nəzərə alınması baxımından istifadəsini əhəmiyyətli edir. Buna görə də, ölkədə ətraf mühitin qorunması, yaranmış gəlirlərin cəmiyyətin sosial inkişafı baxımdan yenidən bölüşdürülməsi, xalis investisiyaların artırılması kimi şərtləri nəzərə almaqla iqtisadi artımın dayanıqlılığının təmin edilməsi qarşıda duran əsas məqsədlərdən olmaqla dövlətin iqtisadi siyasətinin əsasında dayanır. Bütövlükdə, "Davamlı inkişaf" beynəlxalq, ölkə və regional səviyyələrdə cəmiyyətin inkişafının sosial, etik və ekoloji çərçivələrdə təmin edilməsini ifadə edir. İqtisadi, sosial və ekoloji siyasətin davamlı inkişaf prinsipləri əsasında formalaşması həm nəsildaxili, həm də nəsillərarası ədalətin təmin edilməsi məqsədini daşıyır. Bu baxımdan, Azərbaycanda sosial-iqtisadi siyasətin formalaşmasında davamlı inkişaf prinsiplərinin nəzərə alınması gələcək inkişaf baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan 2000-ci ildə Minilliyin Bəyannaməsinə qoşularaq Minilliyin İnkişafı Məqsədlərinin reallaşdırılması məqsədilə müvafiq proqramlar həyata keçirmişdir. Habelə, ölkəmiz Minilliyin İnkişafı Məqsədlərinin davamı olaraq, 2016-2030-cu illər üzrə "Dünyamızın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf Gündəliyi"ndə nəzərdə tutulmuş Davamlı İnkişaf Məqsədlərini realaşdırılmasına qoşulmuşdur. Bununla da, "2030 Gündəliyi"ndə nəzərdə tutulmuş prinsiplərin dövlətin sosial-iqtisaqdi siyasətini formalaşmasında əhəmiyyətli rol oynamağa başlamışdır.[1]

İqtisadi inkişaf məkanla bağlı olduğundan, həmin məkanda baş verən iqtisadi proseslər ətraf mühitə və əhalinin sosial inkişafına təsir göstərir. Buna görə də, regionlarda iqtisadi artımın keyfiyyət

---

[1] Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında 2016-2017-ci illər üzrə YEKUN HESABAT. Bakı: 2018

tərəflərinin, onun nəticələrinin bölüşdürülməsi mexanizminin, ölkə miqyasında formalaşan gəlirlərin davamlı inkişaf prinsiplərinə uyğun regionlararası bölgüsünün, mövcud əmək və təbii potensaildan istifadə səviyyəsinin öyrənilməsinin davamlı inkişafın idarə edilməsi baxımından mühüm əhəmiyyəti vardır.

Şəki-Zaqatala iqtisadi rayonu ölkə ərazisinin 10,2 faizini, əhalisinin isə 6,2 faizini təşkil etməklə, iqtisadiyyatının strukturunda kənd təsərrüfatının yüksək paya malik olması ilə fərqlənir. Habelə, dağ, meşə, şirin, mineral və termal su mənbələri və s. bu kimi təbii ehtiyatların və qədim tarixi-mədəni abidələrin mövcudluğu burada turizmin inkişafını əlverişli edir. Bunlar isə bilavasitə ətraf mühitin qorunması ilə bağlı olan sahələrdir. Habelə, əhalinin sosial inkişafının təmin edilməsi, bununla əlaqədar yaranan gəlirlərin regiondaxili və regionlararası bölgüsü, iqtisadi artımın dayanıqlılığının artırılması, bu məsələlərin həllində nəsildaxili və nəsillərarası ədalətin təmin edilməsi regional siyasətin formalaşdırılmasının əsasında durmalıdır.

Beləliklə, Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişaf potensialının araşdırılması regional siyasətin formalaşdırılması, regionun davamlı inkişafının təmin edilməsi baxımından mühüm aktuallığa malikdir.

**Tədqiqatın obyekti və predmeti.** Şəki-Zaqatala regionunun iqtisadiyyatı seçilmişdir. Şəki-Zaqatala iqtisadi rayonunda davamlı inkişaf potensialının reallaşdırılmasının siyasi və iqtisadi məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişaf potensialının ətraflı araşdırılması və regionda davamlı inkişaf sahəsində dövlət siyasətinin formalaşdırlmasına istiqamətlənmiş təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Bununla əlaqədar təqiqat prosesində aşağıdakı vəzifələr müəyyən edilərək yerinə yetirilmişdir:

- davamlı inkişafın təmin olunması və onun idarə edilməsinin nəzəri aspektlərinin öyrənilməsi;
- ölkədə regionların davamlı inkişafının təmin olunması sahəsində dövlət siyasətinin qiymətləndirilməsi;
- Şəki-Zaqatala iqtisadi rayonunun siyasi-coğrafi mövqeyinin resurs potensialının mənimsənilməsinə təsirinin araşdırılması;

- Şəki-Zaqatala iqtisadi rayonunun təbii resurs potensialının və ondan istifadə səviyyəsinin qiymətləndirilməsi;

- Şəki-Zaqatala iqtisadi rayonunda insan resurslarının məskunlaşma və istifadə vəziyyətinin araşdırılması;

- dövlət proqramlarının regionun perspektiv inkişafına təsirinin qiymətləndirilməsi;

- regional idarəetmədə aparılan struktur islahatlarının əhəmiyyətinin müəyyənləşdirilməsi;

- Şəki-Zaqatala iqtisadi rayonunun davamlı sosial-iqtisadi inkişafında sərhədyanı bölgələrinin əhəmiyyətinin müəyyən edilməsi;

-Şəki-Zaqatala iqtisadi rayonunda davamlı inkişaf potensialının reallaşdırılmasına dair təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat işində yerli və xarici iqtisadçı alimlərin davamlı inkişafın, o cümlədən onun regional və yerli aspektlərinin tədqiqinə həsr edilmiş əsərləri, eləcə də ölkə prezidentinin ölkə və region səviyyəsində davamlı inkişafla bağlı fərman və sərəncamları, hökumətin digər qərarları, normativ və hüquqi aktlar əsas mənbələr kimi istifadə edilmişdir.

Tədqiqatın yerinə yetirilərkən toplanılan informasiyalar keyfiyyət və kəmiyyət tədqiqat üsulları vasitəsi ilə analiz edilmişdir. Bundan başqa proqram yanaşma, analiz və sintez, sistemli təhlil, analitik-statistik və digər tədqiqat metodlarından da məlumatların təhlilində istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- davamlı inkişafın təmin olunması və onun idarə edilməsinə dair nəzəri yanaşmalar sistemləşdirilmişdir;

- ölkədə regionların davamlı inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir;

- Şəki-Zaqatala iqtisadi rayonunda mövcud təbii təbii resurs potensialı, onun siyasi-coğrafi mövqeyinin resurs potensialının mənimsənilməsinə təsiri qiymətləndirilmişdir;

- Şəki-Zaqatala iqtisadi rayonunda insan resurslarının məskunlaşma və istifadə vəziyyəti müəyyənləşdirilmişdir;

- dövlət proqramlarının regionun perspektiv inkişafına təsiri, regional idarəetmədə aparılan struktur islahatlarının əhəmiyyəti qiymətləndirilmişdir;

- regionun davamlı inkişafında sərhədyanı bölgələrinin əhəmiyyəti müəyyən edilmişdir;

- Şəki-Zaqatala iqtisadi rayonunda davamlı inkişaf potensialının reallaşdırılmasına dair təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işində əldə edilən nəticələrdən regional inkişaf siyasətinin formalaşdırılmasında, Şəki-Zaqatala iqtisadi rayonunun inkişaf proqramının, bu regionun davamlı inkişaf potensialının reallaşdırılması və qonşu ölkələrlə sərhədyanı rayonların inkişafı üçün siyasət tədbirlərinin hazırlanmasında, regional iqtisadiyyatın inkişafının dövlət tərəfindən davamlı inkişaf prinsipləri əsasında tənzimləmə mexanizminin formalaşmasında, habelə regional idarəetmənin təkmilləşdirilməsində istifadə oluna bilər.

Dissertasiya işinin ayrı-ayrı bölmələrindən davamlı inkişafa və regional siyasətə dair tədris materialı kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları elmi-praktiki konfranslarda məruzə edilmiş, əldə olunan nəticələri müəllifin ölkə daxilində və xaricində elmi nəşrlərdə çap edilən məqalələrində, iştirak və çixiş etdiyi elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Davamlı inkişaf problemləri BMT səviyyəsində müəyyən edilən, ölkələrarası səyləri nəzərdə tutan və dünyanın inkişafı ilə bağlı siyasəti müəyyən edən amillərdəndir. Bu baxımdan BMT çərçivəsində bu məqsədlərin müəyyən edilməsi və onun nəzəri-metodoloji bazasının yaradılması istiqamətində mühüm tədqiqatlar aparılmışdır. Belə ki, D.Medouz[2]., V.Berns, Q.Brutland, C.Saks, S.Bas, B.Sadler, K.Thomson, R.Sandbruk, N.Robins, R.Haqs və digərləri tərəfindən davamlı inkişafın müxtəlif aspektləri tədqiq olunmuşdur.Azərbaycanda qeyd edilən məsələlər U.Ələkbərov[3], A.Şəkərəliyev[4], Ç.İsmayılov, Ə.Abdullayev, Y.Həsənli, R.Həsənov, İ.Alıyev, S.Hüseynov və başqaları tərəfindən öyrənilmişdir. Habelə,

[2] Медоуз Донелла Х., Медоуз Деннис Л. Рэндерс Йорген, Бернс III Вильям. Пределы роста. М.: Изд-во МГУ, 105 с.

[3] Ələkbərov U.K Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsaslar. Bakı: Təhsil, 2013, 224 s

[4] Şəkərəliyev A. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011, 542 s.

regionların davamlı inkişafına dair Ə.Nuriyev[5], H.Киселева[6], Т.Ускова, P.Qanster Q.Hauqhton[7], D.Kunsel və digərləri tədqiqatlar aparmışlar.

Qeyd edilənlərlə yanaşı, davamlı inkişafın regional aspektləri, xüsusilə Şəki-Zaqatala iqtisadi rayonunda inkişafın davamlılığının təmin edilməsi imkanları, bu istiqamətdə dövlət siyasətinin aspektləri ətraflı araşdırılmamışdır. Bu baxımdan, Azərbaycanda regionların davamlı inkişaf problemlərinin, o cümlədən Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişaf potensialının araşdırılması istiqamətində tədqiqatın aparılmasına ehtiyac vardır və bu amillər dissertasiya işinin mövzusunun müəyyən edilməsini şərtləndirmişdir.

**Tədqiqatın informasiya bazasını** BMT-nin davamlı inkişaf və insan potensialı ilə bağlı hesabatları, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının materialları, müvafiq illərin icmal və dövlət büdcələri, beynəlxalq təşkilatların rəsmi sənəd və hesabatları, eləcə də, digər materiallar təşkil edir.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya giriş, üç fəsil, 9 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş - 8284, I Fəsil – 64.249, II Fəsil – 67.836, III Fəsil – 75.773, Nəticə - 18.527 işarə olmaqla dissertasiyanın ümumi həcmi 234.669 işarədən ibarətdir. İşdə 22 cədvəl və 8 şəkil verilmişdir.

---

[5] .Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. Bakı: Elm və təhsil, 2011, 516 s

[6] Киселева Н.Н. Устойчивое развитие социально-экономической системы региона: методология исследования, модели, управление. Ростов-на-Дону: Издательство ЮФУ, 2008, 288 с.

[7] Haughton Graham, David Counsell. Regions, Spatial Strategies and Sustainable Development. New York: Routledge, 2003, 264 p.

# DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat işinin mövzusunun aktuallığı və işlənmə dərəcəsinin təhlili verilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyən edilmiş, tədqiqat işi yazılan zaman istifadə olunan müvafiq tədqiqat metodları qeyd olunmuş, müdafiəyə çıxarılan əsas elmi müddəalar əsaslandırılmış, tədqiqatın elmi yeniliklərinin konkret mahiyyəti açılıb göstərilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti verilmişdir.

Dissertasiya işinin « **Davamlı inkişaf potensialının təhlilinin nəzəri-metodoloji əsasları** » adlanın birinci fəsli üç yarımfəsildən ibarətdir.

Birinci fəslin « **Davamlı inkişafın təmin olunmasında əsas məqsəd və vəzifələr»** yarımfəslində hər şeydən öncə davamlı inkişafın əsas mahiyyətinin açıqlanmasına yer verilir. Problemə müxtəlif yanaşmaları nəzərdən keçirirək belə bir ümumiləşdirilmiş fikir irəli sürülür ki, davamlı inkişafın mahiyyətini insanların tələblərini ödəməyə qadir olan və onların gələcək tələbatlarını ödəməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin idarə edilməsinin yeni forması təşkil edir.

Davamlı inkişaf nisbətən yeni məfhumdur. Onun mahiyyəti, əsas məqsədləri və vəzifələrinin müəyyən edilməsi konkret müəllif yanaşma və təhlillərindən daha çox beynəlxalq təşkilatırın diqqət mərkəzində saxlanılır. Belə ki, davamlı inkişaf ilk növbədə bəşəriyyət üçün qlobal əhəmiyyət daşıyan bir məfhumdur. Onun mahiyyətini açıqlamaq üçün beynəlxalq təşkilatların bu sahədə təhlil və açıqlamaları xüsusi önəm daşıyır. Xüsusən 2000-ci ildə Minilliyin Sammitində qəbul edilən Minilliyin Bəyannaməsi[8] davamlı inkişafın ümumi məqsədlərinin müəyyən edilməsi üçün olduqca mötəbər bir sənəddir. Adı çəkilən Bəyannamədə davamlı inkişafın məqsədləri belə qeyd olunur:

1. İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
2. Ümumi ibtidai təhsilə nail olmaq;

---

[8] Millennium Development Goals Report 2015. United Nations, New York: 2015, 74 p.

3. Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək;

4. Uşaq ölümü hallarını azaltmaq;

5. Ana sağlamlığını yaxşılaşdırmaq;

6. İİV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;

7. Ətraf mühitin davamlılığını təmin etmək;

8. İnkişaf üçün qlobal tərəfdaşlığı inkişaf etdirmək.

Eyni zamanda BMT-nin 2012-ci ildə baş tutan Rio-20 konfransının 2016—2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədlərinin[9] əhatə etdiyi problemlərin təsnifatı Davamlı inkişafın məqsədlərinin açıqlanmasında mühim əhəmiyyət kəsb edir. Bura dünyanın bütün nöqtələrində yoxsulluğun aradan qaldırılması, Ərzaq təhlükəsizliyinin təmin edilməsi və aclıq problemin həlli, sağlam həyatın və rifahın yaxşılaşdırılması, keyfiyyətli təhsilin təmin edilməsi, gender bərabərliyi, suya çıxış və sanitar əlçatanlığın təmin edilməsi, hamının enerji mənbələrinə çıxışını təmin etmək, işsizliyin aradan qaldırılması, innovativ fəaliyyətin stimullaşdırılması, ölkədaxili və ölkələrarası bərabərsizliyin aradan qaldırılması, iqlim dəyişikliyi və onun nəticələri ilə mübarizə kimi məsələlər problemləri daxil edilmişdir. Ümumilikdə qeyd edilən sənəd davamlı inkişafın təmin olunmasına xidmət edəcək 17 adda problemi təsnifləndirmişdir.

Yekun olaraq müəyyən edilmişdir ki, davamlı inkişaf paradiqması inkişafın mərkəzinə insanı qoyur və iqtisadi artımın təmin ediləsində indiki nəsillə yanaşı, gələcək nəsillərin də həyat tələbatlarının təmin olunması imkanlarının və bütün canlılıarın həyatlarının asılı olduğu təbii sistemin qorunmasına əsaslanır.

Birinci fəslin **“Davamlı inkişafın idarə edilməsinin formalaşması və əsas mərhələləri”** adlanan ikinci yarımfəsli bu və ya digər ölkənin inkişafının mühim komponenti kimi davamlı inkişaf prosesinin təmin olunma mexanizminin təhlilinə həsr edilmişdir. Burada əsas diqqət prosesin idarə edilməsinə yönəlmişdir. Davamlı inkişafın idarə edilməsi həmçinin iqtisadiyyat, sosial sfera,

---

[9] Report of the United Nations Conference on the Human Environment, Declaration of the United Nations Conference on the Human Environment, U.N. Doe. A/CONF.4/141Rev.1.

ekologiya və s. kimi müxtəlif sahələrdə davamlı inkişafa nail olmağa yönəlmiş strategiyaların və fəaliyyət planlarının hazırlanmasını da əhatə edir. Bu strategiya və planlar bütün maraqlı tərəflərin maraqlarının nəzərə alınması və gələcək nəsillərin ehtiyaclarının nəzərə alınması prinsiplərinə əsaslanmalıdır.[10]

Davamlı inkişafın uğurlu idarə edilməsi dövlət qurumları, özəl sektor, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflər arasında səmərəli koordinasiya və əməkdaşlıq tələb edir. Bura dialoq və məlumat mübadiləsi, məsləhətləşmələr və ictimai şərhlər, qərarların qəbulunda iştirak üçün platformaların yaradılması daxil ola bilər.

Davamlı inkişafın idarə edilməsinin əsas prinsipləri qarşısının alınması, ehtiyat prinsipi, məsuliyyət, qarşılıqlı asılılıq, dürüstlük və iştirak prinsipidir. Onlar gələcək nəsillərə zərər vermədən və gələcək nəsillərin perspektivlərini qoruyub saxlamadan bugünkü nəslin ehtiyaclarını balanslaşdırmaq məqsədi daşıyır.[11]

Davamlı inkişafın idarə olunması bu prosesdə bütün maraqlı tərəflərin yaxından iştirakını tələb edir. Vətəndaş cəmiyyəti, biznes sektoru, akademik dairələr və beynəlxalq təşkilatlar kimi bütün maraqlı tərəfləri siyasətin hazırlanması və qərarların qəbul edilməsi prosesinə cəlb etmək də vacibdir. Onlar yeni və innovativ ideyalar təklif edə və davamlılıq problemlərinin həllinə yeni təcrübə və təcrübə gətirə bilərlər.

Davamlı inkişafın həyata keçirilməsində milli hökumətlərə dəstək maliyyələşdirmə, məlumat mübadiləsi və texnologiya transferi kimi müxtəlif mexanizmlər vasitəsilə əldə edilə bilər. Beynəlxalq ictimaiyyət də davamlı inkişaf siyasəti və onunla bağlı proqramların realizəsi üçün dəstək və yardım göstərməkdə fəal iştirak etməlidir.

Davamlı inkişaf həm də əhalinin özünün fəal iştirakını və məsuliyyətini tələb edir. Vətəndaşların davamlı inkişafa nail olmaqda öz rolunu və məsuliyyətini dərk etmələri və təbii sərvətlərin, ətraf

[10] Sustainable development strategies: a resource book / compiled by Barry Dalal-Clayton and Stephen Bass, London: Earthscan Publications Ltd, 2002, 56 p.

[11] Sustainable Development Strategies: A Resource Book/ Compiled by Barry Dalal-Clayton and Stephen Bass, Paris: OECD, 2002

mühitin qorunmasına və ədalətli cəmiyyətin yaradılmasına yönəlmiş müxtəlif təşəbbüs və fəaliyyətlərdə iştirak etmələri vacibdir.[12]

Bu və ya digər dövlət daxilində maraqlı tərəflərin iştirakının bu qədər əhəmiyyət kəsb etməsi milli höükmətlərin bu prosesdə baş subyekt kimi məsuliyyətini azaltmır, əksinə daha da artırır. Belə ki, məhz milli hökumətlər bu sahədə müvafiq siyasətin hazırlanması və realizəsi, qərarların qəbul edilməsi, institusional mexanizmlərin formalaşdırılması prosesini birbaşa həyata keçirərək davamlı inkişafın idarə olunması prosesini sistemli şəklə salır.

İkinci fəslin 3-cü **yaımfəsli "Azərbaycan Respulikasında regionların davamlı inkişafının təmin olunmasında dövlət siyasəti"** adını daşıyır. Bu yarımfəsildə əsasən Azərbaycanda ümumiləşdirilmiş şəkildə davamlı inkişaf siyasətinin realizə xüsusiyyətləri təhlil olunur. Dövlətin yürütdüyü davamlı inkişaf siyasəti regionların inkişafı üzrə dövlət proqramları çərçivəsində araşdırılır.[13] Azərbaycan BMT səviyyəsində qəbul edilmiş davamlı inkişafla bağlı qlobal təşəbbüslərə qoşularaq onların dövlətin iqtisadi, sosial və ekoloji siyasətində nəzərə alır. Bu istiqamətdə həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə yoxsulluq səviyyəsi 2001-ci ildə 49 faizdən 2015-ci ildə 4,9 faizə, işsizlik səviyyəsi müvafiq olaraq 10,9 faizdən 5 faizə qədər, körpə ölümü 16,4-dən 11,0-a, ana ölümü 37,6-dan 14,4-ə qədər azalmış, qeyd edilən dövrdə dövlət büdcəsindən təhsilə çəkilən xərclər 8,6 dəfə, səhiyyəyə çəkilən xərclər 16,9 dəfə, sosial müdafiə və sosial təminata çəkilən xərclər 12,7 dəfə artmış, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə, ətraf mühitin qorunması, milli iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi istiqamətində mühüm nəticələr əldə edilmişdir. Yoxsulluğun azaldılması və davamlı iqtisadi inkişaf üzrə Dövlət proqramlarının hazırlanması Minilliyin Məqsədlərinin milli inkişaf strategiyasına inteqrasiyasına imkan vermiş və dövlətin iqtisadi, sosial və ekoloji

---

[12] Урсул А.Д. Стратегия устойчивого развития в контексте глобализации // Вестник Московского университета. Серия 27: Глобалистика и геополитика, № 1-2, 2015, с. 49-65

[13] Доклад о мировом развитии 2003: Устойчивое развитие в меняющемся мире. Преобразование институтов, рост и качество жизни. М.: Издательство «Весь Мир», 2003, 280 с

siyasətinin formalaşmasına onların əhəmiyyətli təsir etməsinə səbəb olmuşdur.

Azərbaycan BMT-nin Davamlı İnkişaf Sammitində 2016-2030-cu illər üzrə "Dünyamızın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf Gündəliyi"ndə nəzərdə tutulmuş Davamlı İnkişaf Məqsədlərini realaşdırılmasına qoşulmuşdur. Bununla əlaqədar olaraq olaraq Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.[14]

2015-ci ildən sonra davamlı inkişaf məqsədlərinə nail olunma səviyyəsi ilə bağlı bir sıra göstəricilərdə artım davam etmişdir. Belə ki, doğulanda gözlənilən ömür uzunluğu 2013-cü ildə 74,2 ildən 2017-ci ildə 75,4 ilə qədər yüksəlmiş, əhalinin gəlirlərində artım dinamikası, muzdla işləyənlərin sayının, mənzil fondunun ümumi sahəsi və dövlət büdcəsindən təhsilə çəkilən xərclərin artımı davam etmiş, kommunal xidmətlərlə təminat yaxşılaşmışdır.[15] Qeyd edilənlərlə yanaşı, son illərdə neft hasilatının azalması və neftin dünya bazarında qiymətlərinin aşağı düşməsi hesabına iqtisadi artım tempi aşağı düşmüşdür. Belə ki, 2017-ci ildə ölkədə ümumi daxili məhsul 2013-cü ilə nisbətən 3,7 faiz azalmış, istehlak qiymətlərinin səviyyəsi 33,8 faiz artmışdır. Habelə, yoxsulluq səviyyəsi 2015-cü ildə 4,9 faizdən 2017-ci ildə 5,4 faizə yüksəlmişdir.[16]

Belə şəraitdə iqtisadi artımın dayanıqlılığının yüksəldilməsi məqsədilə qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi hazırda iqtisadi siyasətin əsas məqsədlərindəndir.

İqtisadi rayonlarında iqtisadi artıma dövlətin iqtisadi siyasəti əhəmiyyətli təsir göstərmişdir. Belə ki, 2017-ci ildə iqtisadi rayonlarda əsas sahələrdə məhsul buraxılışı 2002-ci ilə nisbətən 3,8 dəfə artdığı halda, tikinti sahəsində artım təqribən 20 dəfəyə bərabər olmuşdur. Bu artım əsasən dövlət büdcəsindən və inkişaf institutları tərəfindən maliyyələşdirilən investisiyalar hesabına baş vermişdir.[17] İqtisadi rayonlarda dövlət büdcəsinin yerli gəlirləri əhəmiyyətli dərəcədə

---

[14] Dayanıqlı İnkişaf Məqsədləri. Statistik məcmuə. Bakı:2018, 151s

[15] Azərbaycanın Statistik Göstəriciləri 2018. Bakı, 2018, 808 s.

[16] Regionların sosial-iqtisadi inkişafı. Statistik məcmuə. Bakı:2019, 676 s.

[17] Sahibkarlığa Kömək Milli Fondu: illik hesabat 2017. Bakı: Şərq-Qərb, 2018, 54 s.

fərqlənsə də, adambaşına düşən xərclər arasında fərq azdır. Belə hal, iqtisadi rayonların inkişafının dövlət büdcəsindən maliyyələşmənin əhəmiyyətli rol oyandığını göstərir.

Dissertasiyanın II fəsli **"Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişafının təmin edilməsində resurs potensialının qiymətləndirilməsi"** adnı daşıyır. Fəslin birinci yarımfəslində Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişafının təmin olunmasında dövlət siyasətinin əsas vəzifələri ilə yanaşı regionun bu istiqamətdə inkişafı üçün xüsusi önəm daşıyan resurs potensialının araşdırılması aparılır. Hesab edilir ki, qeyd edilən iqtisadi rayonda davamlı inkişafın məqsədlərinin realizəsi hər şeydən öncə siyasi-coğrafi mövqe və bu mövqenin resurs potensialının mənimsənilməsinə təsir imkanları ilə bağlıdır. Yarımfəslin "**Şəki-Zaqatala iqtisadi rayonunun siyasi-coğrafi mövqeyinin resurs potensialının mənimsənilməsinə təsiri"** adı da buradan götürülmüşdür. Şəki-Zaqatala iqtisadi rayonu Qax, Oğuz, Qəbələ, Balakən, Şəki və Zaqatala inzibati rayonlarından ibarət olub, sahəsi 8,84 min kv. km-ə, əhalisi 616,8 min nəfərə bərabərdir. Bu inzibati rayonlar inzibati-ərazi dairələrinə, şəhərlərə, qəsəbələrə və kənd yaşayış məntəqələrinə bölünürlər [18]. Burada 350 yaşayış məntəqəsi, o cümlədən 6 şəhər, 8 qəsəbə və 336 kənd mövcuddur və 145 bələdiyyə fəaliyyət göstərir

Şəki-Zaqatala iqtisadi rayonunun ərazisindən Yevlax-Balakən dəmir yolu, habelə respublika əhəmiyyətli M5 "Yevlax-Zaqatala-Gürcüstanla Dövlət Sərhədi" və Qəbələ-Şəki-Qax-Zaqatala istiqaməti üzrə avtomobil magistral yollarının keçməsi regionu strateji cəhətdən ölkə üçün əhəmiyyətini artırır. İqtisadi rayonun ərazisində respublika əhəmiyyətli avtomobil yolların uzunluğu 370 km-ə, yerli əhəmiyyətli avtomobil yollarının uzunluğu isə 1254 km-ə bərabərdir.[18]

Şəki-Zaqatala iqtisadi rayonun malik olduğu təbii-iqtisadi potensialını mineral-xammal ehtiyatlarına, təbii-iqlim şəraitinə, su və torpaq ehtiyatlarına, turizm-rekreasiya ehtiyatlarına, coğrafi-nəqliyyat mövqeyi və əmək ehtiyatlarına bölmək olar.

---

[18] Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2009-cu il tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Mineral-xammal ehtiyatları əsasən filiz mənşəli faydalı qazıntılar (qurğuşun, sink), qeyri-filiz mənşəli faydalı qazıntılar (tikinti xammal) və mineral sulardan ibarətdir. Bu regionun payına ölkənin mis yataqlarının hamısı, kükürdlü kolçedanın 90 faizi, civənin 97 faizi və sinkin 99 faizi düşür. Regionada xammal yataqlarının mövcudluğu burada tikinti materailları sənayesinin inkişaf etdirilməsi üçün imkanlar yaradır. Belə ki, Balakən, Qax, Qəbələ, Şəki, Zaqatala rayonlarında tikinti daşları xammal yataqları mövcuddur.[19]

Şəki-Zaqatala iqtisadi rayonu təbii-iqtisadi potensialının mühüm bir hissəsini də turizm-rekreasiya ehtiyatları təşkil edir. Dağ, meşə, şirin, mineral və termal su mənbələri və s. bu kimi təbii ehtiyatlar və qədim tarixi-mədəni abidələr burada geniş istirahət və müalicə-sağlamlıq şəbəkələri yaratmağa və xarici turizmi inkişaf etdirməyə imkan verir.

Şəki-Zaqatala regionu ölkə ərazisinin 10,2 faizini təşkil etsə də, kənd təsərrüfatı torpaqlarının 8,12 faizi, o cümlədən əkinlərin 9,96 faizi burada yerləşir. Bununla yanaşı, ölkə ərazisinin təqribən 55,2 faizini kənd təsərrüftına yararlı ərazi təşkil edirsə, bu göstərici regionda 44,0 faizə bərabərdir. Belə hal regionun bir hissəsinin kənd təsərrüfatı üçün yararlı olmayan dağlıqlardan ibarət olması ilə əlaqədardır.[20]

İqtisadi rayonun ərazisinin 15,4 faizini biçənək, örüş və otlaqlar təşkil etdiyindən burada heyvandarlığın inkişaf üçün də potensial mövcuddur. Regionda Acınohur vadisinin əsas hissəsindən qış otlaq sahəsi kimi istifadə olunur. Habelə, bir sıra aran rayonları heyvanlarının otarılması üçün buranın yay otlaqlarından istifadə edə bilərlər.[21]

Şəki-Zaqatala iqtisadi rayonunun torpaq resursları kənd təsərrüfatının inkişaf etdirilməsini, turizm-rekreasiya ehtiyatları isə turizmin inkişaf etdirilməsi üçün əlverişli şərait yaradır. Bu baxımdan,

---

[19]Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

[20] "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli Sərəncamı

[21] Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011, 370 s.

regionda təbii amillər hesabına kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi üçün mövcud infrastrukturun təkmilləşdirilməsinə ehtiyac vardır. Bununla yanaşı, iqtisadi rayonun siyasi-coğrafi mövqeyi mövcud təbii resurslardan istifadə üçün əlavə üstünlüklər vermir.

İkinci fəslin ikinci yarımfəsli **Şəki-Zaqatala iqtisadi rayonunun təbii resurs potensialının istifadə edilməsi və qiymətləndirilməsi** adını daşıyır. Burada əsas diqqət mövcud təbii resursların səmərəli istifadəsi prosesinin qiymətləndirilməsinə yönləndirilmişdir. Qeyd olunur ki, Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin sayı 2017-ci ilin sonunda 2000-ci ilin sonuna nisbətən 16,7 faiz, 2010-cu ilin sonuna nisbətən isə 7,2 faiz artmışdır. Son 30 ildə iqtisadi rayonun şəhər əhalisinin payı davamlı şəkildə artmasına baxmayaraq şəhər əhalisinin payı nisbətən kiçik olaraq qalır. 2017-ci ildə əhalinin 28,0 faizi şəhər əhalisinin, 72 faizi isə kənd əhalisinin payına düşmüşdür. Regionda urbanizasiya səviyyəsi nisbətən aşağıdır. Burada əsasən kiçik və orta şəhərlər inkişaf etdiyindən, onların da iqtisadiyyatının ətraf yaşayış məntəqələrinin inkişafına təsiri məhduddur.

İqtisadi rayonda şəhər əhalisinin azlığı burada məskunlaşma səviyyəsinə də təsir göstərmişdir. Belə ki, 2017-ci ildə regionda 1 kv. km-ə 70 nəfər düşmüşdür ki, bu da ölkə üzrə göstəricidən təqribən 1,6 dəfə azdır.

Bütövlükdə, regionda əlverişli iqlim şəraiti, suvarma imkanlarının və əkinə yararlı torpaqların mövcudluğu kəndlərin yerləşməsini müəyyən edən əsas amillərdəndir. Belə ki, qağətəyi zonalarda və Alazan-Avtoran vadisində kənd təsərrüfatına yararlı torpaqların mövcudluğu burada kəndlərin yerləşməsinə səbəb olmuşdur.

Tədqiqat zamanı əsas diqqət regionda insan resurslarının istifadəsinə yönəlmişdir. İkinci fəslin 3-cü yarımfəsli bu məsələyə toxunur. **Şəki-Zaqatala iqtisadi rayonunda insan resurslarının məskunlaşması və istifadəsi** adlanan 3-cü yarımfəsil məhz bu məsələyə həsr edilmişdir. Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin sayı 2017-ci ilin sonunda 2000-ci ilin sonuna nisbətən 16,7 faiz, 2010-cu ilin sonuna nisbətən isə 7,2 faiz artmışdır. Son 30 ildə iqtisadi rayonun şəhər əhalisinin payı davamlı şəkildə artmasına baxmayaraq

şəhər əhalisinin payı nisbətən kiçik olaraq qalır. 2017-ci ildə əhalinin 28,0 faizi şəhər əhalisinin, 72 faizi isə kənd əhalisinin payına düşmüşdür. Regionda urbanizasiya səviyyəsi nisbətən aşağıdır. Burada əsasən kiçik və orta şəhərlər inkişaf etdiyindən, onların da iqtisadiyyatının ətraf yaşayış məntəqələrinin inkişafına təsiri məhduddur.

Şəki-Zaqatala iqtisadi rayonunda kənd yaşayış yerləri təbii, tarixi və sosial-iqtisadi amillərin təsiri nəticəsində fərqlənirlər. Dağ və dağətəyi ərazilərdə düzən ərazilərə nisbətən kənd yaşayış məntəqələri kiçikdir. Belə ki, dağ və dağətəyi ərazilərdə torpaqdan istifadə imkanları məhduddur və ekoloji tələblər daha sərtdir. Hündürlüklərdə kənd təsərrüfatı sahələri pərakəndə, yaşayış əraziləri isə məhduddur.

İqtisadi rayonda şəhər əhalisinin azlığı burada məskunlaşma səviyyəsinə də təsir göstərmişdir. Belə ki, 2017-ci ildə regionda 1 kv. km-ə 70 nəfər düşmüşdür ki, bu da ölkə üzrə göstəricidən təqribən 1,6 dəfə azdır.[22] Bütövlükdə, regionda əlverişli iqlim şəraiti, suvarma imkanlarının və əkinə yararlı torpaqların mövcudluğu kəndlərin yerləşməsini müəyyən edən əsas amillərdəndir. Belə ki, qağətəyi zonalarda və Alazan-Avtoran vadisində kənd təsərrüfatına yararlı torpaqların mövcudluğu burada kəndlərin yerləşməsinə səbəb olmuşdur.

Regionda əhalinin məşğulluğunu təmin edən əsas sahə kənd təsərrüfatıdır  və məşğul əhalinin təqribən 50 faizi bu sahənin payına düşür. Şəki-Zaqatala iqtisadi rayonunda qeyri-kənd təsərrüfatında məşğulluğun artırılması istiqamətində də tədbirlər həyata keçirilməkdədir.

2017-ci ildə iqtisadi rayon üzrə məşğul əhalinin hər nəfərinə orta hesabla illik 4829,1 manat, aylıq isə 402,4 manat məbləğində ümumi məhsul düşmüdür ki, bu da əmək haqqının məbləğini məhdudlaşdıran əsas amildir.[23]

Belə ki, adətən ümumi məhsulun təqribən yarısını aralıq istehlak təşkil etdiyindən, yaradılan əlavə dəyərin hamısını əmək haqqına

---

[22] Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı.

[23] Гранберг А.Г. Основы региональной экономики. М.: ГУ ВШЭ, 2003, 495 с.

yönədildiyi halda təqribən 200 manat məbləğində əmək haqqı vermək mümkündür. Göründüyü kimi, regionda əmək ehtiyatlarından sahə strukturu və əmək məhsuldarlığı baxımından istifadə səmərəliliyi aşağıdır.[24]

Dissertasiyanın yekun 3-cu fəsli **Şəki-Zaqatala iqtisadi rayonunun gələcək inkişafının davamlı olmasınının əsas şərtləri** adını daşıyır**. Dövlət proqramlarının regionun perspektiv inkişafına təsiri** adlı ilk yarımfəsildə Şəki Zaqatala rayonunda regional dövlət proqramlarının realizəsi prosesinin nəticələri araşdırılır. Ərazi planlaşdırılması əraziyə əsaslanan strategiya vasitəsilə sahəvi siyasətin istiqamətlərinin əlaqələdirilməsi və ya inteqrasiyası ilə əlaqədardır. Regional inkişaf proqramlarının əsas məqsədlərini yerli dəyərlərin yaradılmasına (yoxsulluğun azaldılması, əsas ehtiyacların ödənilməsi, iş yerlərinin yaradılması, sosial və ətraf mühit dəyərləri), iqtisadi məqədlər (iqtisadi resurslardan səmərəli istifadə, bilik və bacarıqların yaradılması və s.) və inkişaf məqəsədlərinə (srtruktur dəyişilikləri, inkişafın keyfiyyət aspektləri) bölmək olar.

Ölkənin regionlarında mövcud potensialdan istifadənin yaxşılaşdırılması, əhalinin məşğulluğunu artırılması, yoxsulluğun səviyyəsinin azaldılması məqsədilə 2004-cü ildən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramılarının icrasına başlanmışdır. Həyata keçirilmiş regional inkişaf proqramları Şəki-Zaqatala iqtisadi rayonununda istehsal, sosial və instutsional infrastrukturun əhəmiyyətli inkişafına səbəb olmaqla, bu regionda davamlı inkişafın təmin olunmasına müsbət təsir göstərmişdir. Nəticədə, regionlarda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətlərində yeni keyfiyyət mərhələsinə keçilməsi üçün imkanlar yaranmışdır.

2019-cu ildən “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasına başlanır. Bu proqrama əsasən Şəki-Zaqatal iqtisadi rayonunda sənayenin və turizmin inkişafının, kənd təsərrüfatı məhsullarının istehsalı və emalının dəstəklənməsi, kənd təsərrüfatına xidmət edən

---

[24] Eminov Z., Əyyubov N.və digərləri. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhali məskunlaşması və demoqrafik inkişaf problemləri. Bakı: 2016.

infrastrukturun möhkəmləndirilməsi, kənd yerlərində abadlıq-quruculuq işlərinin, idman-sağlamlıq, mədəniyyət və təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi, telekommunikasiya və poçt xidmətlərinin, elektrik enerjisi, istilik, qaz və su təchizatının yaxşılaşdırılması sahəsində işlərin, kəndlərin giriş yollarının, kəndlərarası və kənddaxili avtomobil yollarının tikintisinin və yenidən qurulmasını sahəsində işlərin, sel sularından mühafizə və meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsinin davam etdirilməsi nəzərdə tutulmuşdur.[25]

3-cü fəslin **"Regional idarəetmədə yeridilən struktur islahatlarının əhəmiyyəti"** adlı ikinci yarımfəsli regionda realizə olunan inzibati islahatlara həsr edilmişdir. Azərbaycanda yerli idarəetmədə həm inzibati, həm də siyasi əks mərkəzləşdirmənin elementləri vardır. Belə ki, dövlətin yerlərdə siyasəti mərkəzi hökumətin yerli qurumları tərəfindən həyata keçirilir. Yerlərdə yerli əhali tərəfindən seçilən özünüidarəetmə qurumları mövcuddur. Şəki-Zaqatala iqtisadi rayonunda ərazilər rayon, şəhərlərdən, qəsəbələrdən və kəndlərdən ibarətdir və bu prinsip bələdiyyələrin ərazilərinin müəyyən edilməsində əsas kimi götürülmüşdür. Hazırda bələdiyyələrin və yerli icra orqanları arasındakı münasibətlərin və səlahiyyətlərin bölgüsü ilə bağlı məsələlərin konkretləşdirilməsinə böyük ehtiyac var. Belə bir ehtiyac daha çox ictimai xidmətlərin göstərilməsi sferasında meydana çıxır.

Bələdiyyələrin yerli gəlirlərinin həcmi ərazinin inkişaf səviyyəsindən, təbii ehtiyatların mövcud olmasından əhəmiyyətli dərəcədə asılıdır. Belə şəraitdə, bələdiyyə ərazilərində yaşayan əhalinin bələdiyyə xidmətlərinə bərabər çıxışının təmin edilməsi üçün yerli xərclərin müəyyən hissəsinin dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar hesabına maliyyələşdirilə bilər.

Şəki-Zaqatala iqtisadi rayonunda 2017-ci ildə yerli büdcələrin xərclərində idarəetmə xərclərinin payı 64,6 faizə bərabər olmuşdur. Xüsusilə, dövlət büdcəsindən verilən dotasiyalar çıxıldıqda bu göstərici daha da yüksələr. Nəticədə, bu qurumlarin fəaliyyəti səmərəsiz olmaqla, ərazinin inkişafında əhəmiyyətli rol oynamırlar.

[25] 2016-cı ildə ev təsərrüfatları tədqiqatının yekunları. Dövlət Statistika Komitəsi, Bakı: 2017, 177 s.

Qeyd edilənləri nəzərə alaraq bələdiyyələrin iriləşdirilməsi və onların funksiyalarına uyğun maliyyə vəsaitləri ilə təmin edilməsi zəruridir.

Region üzrə bir sıra strutkur islahatların aparılmasının zərurəti xüsusi vurğulanır. Regionda istehsalla əlaqəli infrastrukturun yaradılması özəl sektor tərəfindən bu obyektlərin xidmətlərindən istifadə edən müəssisələrin yaradılmasının dəstəklənməsi ilə paralel olaraq aparılmalıdır. Dünya təcrübəsi göstəriri ki, regional siyasətin səmərəliliyi ilə bağlı ən böyük problemlərdən biri regionlarda dövlət büdcəsinin vəsiti hesabına yaradılmış infrastruktur obyektlərdən istifadə səviyyəsinin aşağı olması ilə əlaqədardır.[26]

Orta müddətli dövrdə Şəki-Zaqatala regionunun iqtisadiyyatında kənd təsərrüfatı əsas yer tutacaqdır. Bununla yanaşı, torpaqlardan istifadənin yaxşılaşdırılması, torpaq ehtiyatlarının davamlı idarə olunması mexanizminin formalaşdırılması zəruridir. Belə şəraitdə kənd təsərrüfatı təyinatlı torpaqların bütün növləri üzrə davamlı inkişaf prinsipləri əsasında istifadə edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi tələb olunur. Bu istiqamətdə həyata keçiriləcək tədbirlərdən biri də yaylaq və qışlaqlardan davamlı inkişaf prinsiplərinə uyğun istifadə edilməsidir.

Sonuncu yarımfəsil **“Şəki-Zaqatala iqtisadi rayonunun davamlı sosial-iqtisadi inkişafında sərhədyanı bölgələrinin əhəmiyyəti”** adını daşıyır. Xüsusi vurğulanır ki, regionun xarici ölkələrlə həmsərhəd olması onun iqtisadi inkişafına mühim təsir göstərir. Şəki-Zaqatal regionunun Balakən, Zaqatala və Qax rayonlarının həm Rusiya, həm də Gürcüstanla sərhəddi, Şəki, Oğuz və Qəbələ rayonlarının yalnız Rusiya ilə sərhəddi vardır. Rusiya ilə sərhəd dağlıq ərazilərdən ibarət olduğundan bu ərazilərdə məskunlaşma səviyyəsi həddən artıq aşağıdır və burada nəqliyyat əlaqələri yoxdur. Bununla yanaşı, iqtisadi rayonun Gürcüstanla nəqliyyat əlaqələri mövcuddur. Bu əlaqələr əsasən Gürcüstanın Kaxeti

---

[26]Shankar R., Shah A. Regional Income Disparities and Convergence: Measurement and Policy Impact Evaluation / in Macrofederalism and Local Finance by edited Anwar Shah, Washington: World Bank, 2008, Chapter 4, pp. 143-192.

vilayəti ilə yaradıla bilər. Gürcüstanla sərhəd əlaqələri Balakən və Zaqatala rayonlarının ərazisindən mümkündür.[27]

Şəki-Zaqatala iqtisadi rayonu ilə Gürcüstanın Kaxeti vilayətinin iqtisadiyyatlarının strukturunda müəyyən fərqlər olsa da, hər ikisi əsasən kənd təsərrüfatı məhsullarının istehsalına və emalına əsaslanır. Bundan başqa, hər iki regionun coğrafi oxşarlığı regionların iqtisadi əməkdaşlığı üçün imkanlarını məhdudlaşdırır. Belə ki, əməkdaşlıq bir-birini əvəz edən deyil, bir-birini tamamlayan inkanlar əsasında həyata keçirilir. Bununla yanaşı, turizmin inkişafı, ətraf mühitin qorunması, regionların tranzit imkanlarından istifadə edilməsi, bəzi kənd təsərrüfatı məhsullarının ticarəti və digər istiqamətlərdə iqtisadi əməkdaşlıq imkanları mövcuddur.[28]

Şəki-Zaqatala regionun əsasını kənd təsərrüfatı təşkil etdiyindən sərhədyanı ticarətdə kənd təsərrüfatı məhsullarının ixracı üstünlük təşkil edə bilər. Bu məhsullara tərəvəz və meyvə aiddir. Belə ki, 2017-ci ildə Gürcüstana 42,5 mln. ABŞ dolları dəyərində tərəvəz, 78,1 mln. ABŞ dolları dəyərində meyvə idxal etmişdir.

Həmsərhədd əməkdaşlıq əsasında turist marşurutlarının müəyyən edilib inkişaf etdirilməsi bu sahədə potensialın reallaşdırılması baxımından əhəmiyyətlidir. Belə ki, son illərdə Kaxeti vilayətində mehmanxana infarastrukturunun inkişaf etdirilməsinə baxmayaraq bu sahəyə investisiya qoyuluşları məhdud olaraq qalır.

Azərbaycan və Gürcüstan sərhədyanı regionlarının əməkdaşlığı bir neçə istiqaməti əhatə edə bilər. Birincisi, bitrərəfli fəaliyyət nəticəsində qarşılıqlı mənfi nəticələrin azaldılması üçün əməkdaşlığın edilməsi. Belə ki, sudan istifadə, çaylara atılan tullantıların həcminin artması, tikinti işləri və s. bu kimi fəaliyyətlər qonşu ölkənin sərhədyanı rayonlarında mənfi nəticələrə səbəb olur. İkincisi, sərhəd bölgələrinin əməkdaşlığı nəticəsində bir bölgənin həyata keçirdiyi tədbirlərdən digər sərhədyanı bölgənin faydalanması hesabına yaranmış müsbət nəticələrin sinergetik təsiri artır[30]. Fikrimizcə,

---

[27] "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli Sərəncamı

[28] Yerli icra hakimiyyətləri haqqında Əsasnamə, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

hazırda Şəki-Zaqatala iqtisadi rayonununda turizm infarstrukturunun inkişaf etdirilməsi və turist marşurutlarına Gürcüstanın da daxil edilməsi bu tədbirlərin ikitərəfli təsirini artıra bilər. Şəki-Zaqatala iqtisadi rayonunun Kaxeti vilayəti ticarət əməkdaşlığının artırılması məqsədilə sərhədyanı bazar və ya yarmarkaların təşkili məqsəduyğundur.

Dissertasiyanın **Nəticə** hissəsində aparılan tədqiqatın ən ümumi nəticələri, müdafiəyə çıxarılan müddəalarla bağlı bir sıra məsələlər öz əksini tapmışdır.

1.Azərbaycan BMT səviyyəsində qəbul edilmiş davamlı inkişafla bağlı qlobal təşəbbüslərə qoşularaq onların dövlətin iqtisadi, sosial və ekoloji siyasətində nəzərə alır. Bu istiqamətdə həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə yoxsulluq səviyyəsi 2001-ci ildə 49 faizdən 2015-ci ildə 4,9 faizə, işsizlik səviyyəsi müvafiq olaraq 10,9 faizdən 5 faizə qədər, körpə ölümü 16,4-dən 11,0-a, ana ölümü 37,6-dan 14,4-ə qədər azalmış, qeyd edilən dövrdə dövlət büdcəsindən təhsilə çəkilən xərclər 8,6 dəfə, səhiyyəyə çəkilən xərclər 16,9 dəfə, sosial müdafiə və sosial təminata çəkilən xərclər 12,7 dəfə artmış, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə, ətraf mühitin qorunması, milli iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi istiqamətində mühüm nəticələr əldə edilmişdir. Yoxsulluğun azaldılması və davamlı iqtisadi inkişaf üzrə Dövlət proqramlarının hazırlanması Minilliyin Məqsədlərinin milli inkişaf strategiyasına inteqrasiyasına imkan vermiş və dövlətin iqtisadi, sosial və ekoloji siyasətinin formalaşmasına onların əhəmiyyətli təsir etməsinə səbəb olmuşdur.

Azərbaycan BMT-nin Davamlı İnkişaf Sammitində 2016-2030-cu illər üzrə "Dünyamızın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf Gündəliyi"ndə nəzərdə tutulmuş Davamlı İnkişaf Məqsədlərini realaşdırılmasına qoşulmuşdur. Bununla əlaqədar olaraq olaraq Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

2015-ci ildən sonra davamlı inkişaf məqsədlərinə nail olunma səviyyəsi ilə bağlı bir sıra göstəricilərdə artım davam etmişdir. Belə ki, doğulanda gözlənilən ömür uzunluğu 2013-cü ildə 74,2 ildən 2017-ci ildə 75,4 ilə qədər yüksəlmiş, əhalinin gəlirlərində artım dinamikası, muzdla işləyənlərin sayının, mənzil fondunun ümumi sahəsi və dövlət

büdcəsindən təhsilə çəkilən xərclərin artımı davam etmiş, kommunal xidmətlərlə təminat yaxşılaşmışdır. Qeyd edilənlərlə yanaşı, son illərdə neft hasilatının azalması və neftin dünya bazarında qiymətlərinin aşağı düşməsi hesabına iqtisadi artım tempi aşağı düşmüşdür. Belə ki, 2017-ci ildə ölkədə ümumi daxili məhsul 2013-cü ilə nisbətən 3,7 faiz azalmış, istehlak qiymətlərinin səviyyəsi 33,8 faiz artmışdır. Habelə, yoxsulluq səviyyəsi 2015-cü ildə 4,9 faizdən 2017-ci ildə 5,4 faizə yüksəlmişdir. Belə şəraitdə iqtisadi artımın dayanıqlılığının yüksəldilməsi məqsədilə qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi hazırda iqtisadi siyasətin əsas məqsədlərindəndir.
2. İqtisadi rayonlarında iqtisadi artıma dövlətin iqtisadi siyasəti əhəmiyyətli təsir göstərmişdir. Belə ki, 2017-ci ildə iqtisadi rayonlarda əsas sahələrdə məhsul buraxılışı 2002-ci ilə nisbətən 3,8 dəfə artdığı halda, tikinti sahəsində artım təqribən 20 dəfəyə bərabər olmuşdur. Bu artım əsasən dövlət büdcəsindən və inkişaf institutları tərəfindən maliyyələşdirilən investisiyalar hesabına baş vermişdir. İqtisadi rayonlarda dövlət büdcəsinin yerli gəlirləri əhəmiyyətli dərəcədə fərqlənsə də, adambaşına düşən xərclər arasında fərq azdır. Belə hal, iqtisadi rayonların inkişafının dövlət büdcəsindən maliyyələşmənin əhəmiyyətli rol oyandığını göstərir.

Ölkənin kənd təsərrüfatı torpaqlarının 8,12 faizi, o cümlədən əkinlərin 9,96 faizi Şəki-Zaqatala iqtisadi rayonun payına düşür. Burada böyük miqdarda şirin su ehtiyatları mövcuddur. Habelə, region ərazisinə düşən yağıntıların miqdarına görə Lənkəran iqtisadi rayonundan sonra ölkədə ikinci yeri tutur. İqtisadi rayonun ərazisinin 15,4 faizini biçənək, örüş və otlaqlar təşkil edir. Qeyd edlən amillər burada kənd təsərrüfatının inkişafını əlverişli edir. Habelə, dağ, meşə, şirin, mineral və termal su mənbələri və s. bu kimi təbii ehtiyatlar və qədim tarixi-mədəni abidələr burada turizmi inkişaf etdirməyə imkan verir.

2017-ci ildə iqtisadi rayon üzrə əkin sahələri 1,3 dəfə, çoxillik əkmələrin sahəsi isə 1,7 dəfə artmışdır. Bu artıma dövlətin aqrar siyasəti əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, 2001-ci ildən kənd təsərrüfatı istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilmişlər. Habelə, 2007-ci ildən başlayaraq kənd

təsərrüfatının inkişafında dövlət dəstək mexanizmi davamlı şəkildə təkmilləşdirilir və bu dəstəyin həcmi artırılır.

İqtisadi rayonda torpaq sahələrindən istifadənin yaxşılaşdırılmasının mühüm istiqamətlərindən biri suvarılan sahələrin genişləndirilməsidir. Bunun üçün isə müasir suvarma texnologiyalarının tətbiqinə, çaylarda axının qeyri-mütənasibliyi nəticəsində su çatışmazlığının qaradn qaldırılmasına imkan verən su anbarları şəbəkəsinin genişləndirilməsi və onlardan səmərəli idarə edilməsinə ehtiyac vardır. Habelə, regionda əkin sahələrinin və yaşayış məntəqələrini daşqın və sel sularından qorumaq üçün bəndləri tikintisinin genişləndirilməsi məqsəduyğundur.

İqtisadiya rayonun iqtisadiyyatında sənayenin payı kiçikdir. Regionun inzibati rayonları icərisində yalnız Zaqatal rayonunda sənaye sahəsi əhəmiyyətli paya malikdir. Belə ki, 2017-ci ildə regionun sənaye məhsulunun 61,6 faizi Zaqatala rayonunun payına düşmüşdür.

Şəki-Zaqatal iqtisadi rayonunun iqtisadiyyatının inkişafı baxımından turizmin sahəsində mövcud potensialdan istifadə mühüm əhəmiyyət kəsb edir. Bu sahədə mövcud təbii və mədəni potensialın reallaşdırılması üçün mehmanxana şəbəkəsinin mövcudluğu vacib şərtlərdən biridir. 2017-ci ildə regionda mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı 2006-cı ilə nisbətən 4,3 dəfə, 2010-cu ilə nisbətən 2,0 dəfə, onların birdəfəlik tutumu isə müvafiq olaraq 4,2 dəfə və 2 dəfə artmışdır.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır**:

1. Государственная политика в области обеспечения устойчивого развития на примере регионов Азербайджанской Республики/ Вестник Башкирского института социальных технологий. 2022. N. 2(55) Səh. 178-184
2. Azərbaycan Respublikasının Şəki-Zaqatala Rayonunun nümunəsində regional idarəetmə sistemində struktur islahatlar/ Naxçıvan Universitetinin"Elmi əsərlər" jurnalı Naxçıvan MR, Azərbaycan.2022. N. 2 (26). Səh. 66-75
3. Davamlı inkişaf konsepsiyasının formalaşması və əsas müddəaları/"Geostrategiya", Bakı, Azərbaycan. 2022. N.3 (69). Səh. 53-88
4. Şəkı-Zaqatala regionu Azərbaycan Respublikasının Gürcüstan və Rusiya Federasiyası ilə trans-sərhəd əməkdaşlıq sistemində /Geostrategiya", Bakı, Azərbaycan. 2022. N.5 (65). Səh. 27-32
5. Şəki-Zaqatala iqtisadi rayonunda insan resurslarının məskunlaşması və istifadəsi/Geostrategiya", Bakı, Azərbaycan. 2022. N.5 (65). Səh. 27-32

***Konfrans materialı***

1. Regional idarəetmədə aparılan struktur islahatlarının əhəmiyyəti/ Bədən Tərbiyəsi və İdman Akademiyasinin Elmi Xəbərləri. Bakı 2022
2. Azərbaycan Respublikasında regionaların davamlı inkişafının təmin olunmasında dövlət siyasəti/ Bakı Biznes Universiteti. Bakı 2022.
3. Regionoun siyasi-coğrafi mövqeyinin resurs potensialının mənimsənilməsinə təsiri/ Azərbaycan Turizm və Menecment Universiteti. Bakı 2022.
4. Оценка факторов, влияющих на устойчивое развитие региона (на примере Шеки-Загатальского экономического района Азербайджана/ Казахский Национальный Педагогический Университет имени Абая Кунанбаева. 2023, с.50-53

Dissertasiyanın müdafiəsi “___”______2024-cü il tarixində saat ____ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən BFD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Baki, Lermontov küç.74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferat elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “___”______2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.05.2024
Kağızın formatı: A5
Həcmi: 39.796
Tiraj: 100